Kaspi 2019.- 26-28 yanvar.- S.20.

www.kaspi.az 26 yanvar 2019



■ Fərid Hüseyn

# Ağlın toxluğundan qəlbin aclığına

əvvəli ötən sayda

## ÇARƏSİZLİK

Aleksey Aleksandroviç kimi onun rəqibinin - Vronskinin də vəziyyəti acınacaqlıdır, o da çıxılmaz vəziyyətdədir. Vronski Peterburqa qayıdandan sonra başa düşür ki, kübar cəmiyyətdə daha ona yer yoxdur, doğma şəhəri ona əvvəlki kimi qucaq açmayacaq, o əvvəlki həyatından məhrum olub. Ailəsi, xüsusən anası sevdiyi qadını onun xanımı kimi qəbul edə bilmir, çünki o qadına görə oğlu bütün uğurlu gələcəyinin üstündən çarpaz xətt çəkib. Vronski düşünür ki, hamı bir qadına görə ondan üz döndərsə də, qardaşının həyat yoldaşı Varya onu başa düşəcək, Annanı qəbul edəcək. Ancaq yanılır, Varya da çətin məqamda cəmiyyətin mövqeyindən çıxış edir: ***"Sən istəyirsən mən Annanın yanına gedim, onu qəbul edim və beləliklə də cəmiyyətdə təmizə çıxarım: lakin başa düş ki, mən bunu edə bilmərəm. Mənim qızlarım böyüyür və mən cəmiyyətdə ərim üçün yaşamalıyam".***

Əsər boyunca biz ancaq Anna Kareninanın itirdiklərini görürük, ona görə də onu anlamağa çalışırıq, halına daha çox acıyırıq. Anna məhəbbət üçün hər şeyini itirib: ailə həyatını, nüfuzunu, oğlunu, rahatlığını, təmiz adını və s. Ancaq bu hissədə (Beşinci hissə, XXVIII) Vronskinin də itkiləri görünür: o, hörmətlə xatırlanan adı, karyerası, nüfuzu, valideyn sevgisi və s. Anna da Vronski də bir-birlərinə məhrumiyyətlər hesabına qovuşublar. Bu məqamda kimin daha çox qurban verməsindən asılı olmayaraq, onlar bir-birinə təndirlər, bərabərdirlər, itkiləri onları bir-birinə daha da bağlayıb. Məhəbbət isə tənliyin, bərabərliyin təcəssümüdür. Tolstoy qəhrəmanı Vronskiyə cəmiyyətin ona təzyiqli mövqeyini belə ifadə edir: ***"Vəziyyətin dəyişəcəyinə heç bir şeyin mane olmayacağını bildikdə bardaş qurub eyni vəziyyətdə bir neçə saat oturmaq olar; lakin insan bardaş qurub oturmağa məcbur olduğun bildikdə ayaqları keyiyir, onları ürəyi istəyən tərəfə uzatmaq istəyir".*** Vronski kübar cəmiyyətin ona olan sərt münasibətindən başa düşür ki, o, Peterburqda qalası olsa, məhz bardaş qurmağa məcbur edilən insan kimi yaşayacaq və bu söz-söhbətlər, dedi-qodular heç zaman səngiməyəcək, ona olan kəskin münasibət dəyişməyəcək. Çünki cəmiyyət bağışlamır, daha çox ittiham edir, haqq-hesab çürüdür. Cəmiyyəti səbəblər deyil, nəticələr maraqlandırır. Nəticəylə maraqlananlar isə heç zaman qarşı tərəfi anlamaq haqqında düşünmürlər. Cəmiyyətdəki söz-söhbətlər nəticələrdir. Tolstoy əsər boyunca cəmiyyətin iç üzünü açır və cəmiyyətin ittihamçı mövqeyini, daşlaşmış qanunlarını qəbul etmir. Vronski üçün digər bir bəla, çıxılmazlıq isə Aleksey Aleksandroviçin varlığıdır: ***"Peterburqdakı vəziyyətin başlıca pis cəhətlərindən biri bu idi ki, Aleksey Aleksandroviç sanki hər yerdə olurdu, onun adı sanki hər yerdə çəkilirdi. Heç elə söhbət olmurdu ki, Aleksey Aleksandroviçin üstünə gəlib çıxmasın; hara getsən onun söz-söhbətinə rast gəlirdin. Bu belə olmasaydı da, barmağı ağrıyan adam həmin o barmağının qəsdən hər şeyə toxunduğunu düşündüyü kimi Vronski də belə zənn edirdi".*** Yenidən qayıtdıqları Peterburq həyatı onlara - Anna və Vronskiyə yaxşı mənada heç nə vəd etmir, əksinə, xoşbəxtlik çənbərinin nə qədər daraldığını göstərir.



Əsərin sonuna yaxınlaşdıqca sanki əsas obrazlar daha çıxılmaz duruma düşürlər. Annanın oğlu Seryojançıxılmaz vəziyyətdədir. Uşağa yalandan inandırıblar ki, guya anası ölüb. Sonra uşaq təsadüf nəticəsində həqiqəti - anasının sağ-salamat olduğunu bilib. Nəticədə Seryoja bir dəfə anasının ölüm xəbərindən sarsılır, ikinci dəfə isə anasının ölü hesab edilməsinin səbəbini qəbullana bilmir. Tolstoy uşaq qəhrəmanının saf təxəyyülünü belə canlandırır: ***"Seryoja ona tez-tez haqqında danışılan ölümə heç inanmırdı. Seryoja inanan bilmirdi ki, sevdiyi adamlar, xüsusən də onun özü ölə bilər. Bu onun üçün tamamilə qeyri-mümkün və anlaşılmaz idi. Lakin ona deyirdilər ki, hamı öləcək, o hətta bu barədə inandığı adamlardan da soruşmuş və bunu onlar da təsdiq etmişdilər..."*** Anasının yoxluğuna inanmayan uşaq ümumilikdə ölümün mövcudluğuna inanmaq istəmir, bu, əslində, üsyandır, uşaq qəlbinin ölümə qarşı qiyamıdır. Çox dəhşətli durumdur. Cəmiyyət əsərin baş qəhrəmanlarına öz reallığını diktə etdiyi kimi, balaca Seryojanı da ölümə inanmağa məcburən edir. Digər iki kişi qəhrəman (Vronski və Aleksey Aleksandrviç) kimi Seryoja da mövcud reallığı dəyişə bilməz. Əsərdəki situasiyalar o qədər qaçılmazdır ki, sanki əsəri müəllif yazmayıb, roman vəziyyətə, obrazların başına gələn hadisələr uyğun təbii şəkildə dəyişir. Sanki süjeti müəllif yox, qəhrəmanların taleyi qurur.

Əsas qəhrəmanların hər biri çıxılmazlıqdadırlar, çarəsizlik marafonu davam edir. Ancaq Anna hər kəsdən daha tez çatır çarəsizliyinin sonu - ölüm dayanacağına. Çarəsizlik durumu əsas qəhrəmanların hər birini ölümün astanasına gətirir, əsər irəlilədikcə o çarəsizlik alovu daha da böyüyür. O alovu söndürmək üçün isə qurban qanı lazım idi. Vronski özünə qəsd edir, ancaq ölmür. Çünki Vronskinin ölümü digər qəhrəmanları daşıdıqları məsuliyyətdən azad etməyəcəkdi. Əgər Vronski ölsəydi Anna xəyanətkar bir qadın, əri isə olanlara göz yuman yüngülqeyrət kimi yaddaşlarda qalacaqdı. Bu aqibət isə Tolstoyu düşündürən ali xilas məqamına uyğun gəlmirdi. Annanın əsərin sonunda intiharı ideal ölüm sayıla bilər. Beləcə, ideal məhəbbətə canatım ideal ölümlə tamamlanır.

*Ardı var*